**İki sahil**. - 2024. - 20 sentyabr. - № 172. - S. 10.

# COP29: Ölkəmiz mühüm tarixi hadisənin astanasında

## Gözləntilər və ümidlər "yaşıl gələcək" üçündür...

**Yaqut Ağaşahqızı**

**Bakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlaşır. Azərbaycanın COP29-a yüksək səviyyədə ev sahibliyi edəcəyinə və bu qlobal tədbirin müvəffəqiyyətlə keçəcəyinə heç kəsin şübhəsi yoxdur. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, ölkəmizin gündəliyi yaşıl enerji ilə bağlıdır.**

COP29 Təşkilat Komitəsinin üzvü, “Sağlamlığa Xidmət” İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, Azərbaycan bu mötəbər beynəlxalq tədbir vasitəsilə qlobal iqlim təşəbbüslərinə liderlik etmək və öz reallıqlarını dünyaya çatdırmaq üçün nadir bir fürsət qazanır. Azərbaycanın ev sahibliyi, ölkənin iqlim dəyişikliyinə qarşı mübarizədəki öhdəliyini gücləndirmək və davamlı inkişaf sahəsində liderlik göstərə biləcəyi nüfuzlu bir platforma yaradır.

Pərvanə Vəliyeva qeyd etdi ki, COP29 çərçivəsində Azərbaycan bir sıra texnologiyaları vurğulayır. Bunlar arasında yaşıl enerji texnologiyaları, təmiz hidrogen istehsalı və enerji səmərəliliyi üçün infrastrukturun yaradılması yer alır. Ölkəmiz, həmçinin rəqəmsal texnologiyaların və İKT sektorunun istixana qazlarının azaldılmasında rolunu gücləndirməyi hədəfləyir. Bundan əlavə, yaşıl enerjinin saxlanılması və enerji şəbəkələrinin inkişafı üzrə qlobal hədəfləri önə çıxarır.

Bakı Təşəbbüsü (BICFIT Dialoqu) iqlim maliyyəsi, investisiya və ticarət sahələrində əməkdaşlığı inkişaf etdirməyi qarşısına məqsəd qoyub. Bundan əlavə, yaşıl enerji və təmiz hidrogen layihələri, həmçinin kənd təsərrüfatı və su resurslarının qorunması üzrə təşəbbüslər də təqdim edilib. Bakı Təşəbbüsü COP29 çərçivəsində iqlim maliyyəsi, investisiya və ticarət üzrə beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə uzunmüddətli bir dialoq platformasıdır. Təşəbbüs iqlim dəyişikliyinə uyğunlaşma və iqlim maliyyələşdirilməsinin gücləndirilməsi üçün qlobal səviyyədə dövlətlər, özəl sektor və digər maraqlı tərəflər arasında sıx əməkdaşlığı təşviq etməyi hədəfləyir. Bu təşəbbüs iqlim fəaliyyətinə yatırımların artmasına və davamlı inkişafın dəstəklənməsinə şərait yaradan mühüm bir platforma kimi nəzərdə tutulur.

Qeyd olunan təşəbbüslər bir neçə istiqamətdə icra olunacaqdır. Əsas təşəbbüslərdən biri olan İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu könüllü ianələrlə maliyyələşdirilərək, iqlim dəyişikliyi ilə mübarizə və uyğunlaşma layihələrini dəstəkləyəcək. Bakı Təşəbbüsü vasitəsilə qlobal səviyyədə iqlim maliyyəsi, investisiya və ticarət əlaqələrinin gücləndirilməsi üçün uzunmüddətli dialoqlar yaradılacaq. Yaşıl enerji və təmiz hidrogen kimi digər təşəbbüslər texnoloji, maliyyə və hüquqi çərçivələrin təsis edilməsi və əməkdaşlıqların inkişafı ilə icra ediləcək.

P.Vəliyeva onu da diqqətə çatdırdı ki, COP29 sülhü, dialoqu və barışığı daha geniş şəkildə təbliğ etmək və iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır. İqlim və ekologiya məsələlərinə qlobal diqqətin artırılması sülh prosesinin daha da irəli aparılması üçün də bir fürsətdir.

Beləliklə, burada ekologiya və iqtisadiyyata “yaşıl baxış”dan tutmuş sülh quruculuğuna, qlobal geosiyasi proseslərə qədər ən mühüm məsələlər müzakirəyə çıxarılacaq.

COP 29 Təşkilat Komitəsinin üzvü, Qadın, İnkişaf, Gələcək İctimai Birliyinin sədri Gülşən Axundova isə “İki sahil” qəzetinə açıqlamasında COP29-un qlobal təşəbbüslərin geniş beynəlxalq platforma çərçivəsində səsləndirilməsi üçün müstəsna bir fürsət yaratdığını diqqətə çatdırdı: "Bu tədbir, ölkələrin iqlim dəyişikliyi ilə bağlı strategiyalarını və töhfələrini dünya miqyasında təqdim etmək, həmçinin qlobal ekoloji problemlərin həlli yolları üzərində birgə iş aparmaq üçün birləşdiyi məkandır. Azərbaycan üçün də bu platforma iqlim və ekoloji məsələlərə dair beynəlxalq ictimaiyyətlə fikir mübadiləsi aparmaq, dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat prinsiplərinə əsaslanan təcrübələrini bölüşmək üçün geniş imkanlar yaradır.”

Gülşən Axundovanın sözlərinə görə, Azərbaycan üçün COP29 kimi beynəlxalq tədbir. Öz reallıqlarını dünyaya çatdırmaq üçün unikal bir imkan yaradır. Ölkəmiz həm coğrafi, həm də iqtisadi baxımdan iqlim dəyişikliyinə qarşı xüsusi həssaslığa malikdir və bu, qlobal səviyyədə iqlim və ekoloji problemlər barədə məlumat vermək üçün vacib bir fürsət yaradır.

Həmsöhbətimiz qeyd etdi ki,Azərbaycan, neft və qaz sənayesində böyük təcrübəyə malik olmaqla yanaşı, yenilənə bilən enerji mənbələrinin inkişafına da ciddi diqqət yetirir. Xüsusən də külək və günəş enerjisi sahələrində həyata keçirilən layihələr və bu sahədə əldə edilən nailiyyətlər qlobal iqlim müzakirələrində diqqətə çatdırıla bilər. Ölkənin iqtisadi inkişafını davamlı etmək üçün yaşıl iqtisadiyyat prinsipləri çərçivəsində həyata keçirdiyi islahatlar, dayanıqlı kənd təsərrüfatı və sənaye sektoru inkişaf etdirilir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar digər ölkələr üçün nümunə ola bilər.

Müsahibimiz vurğuladı ki, Azərbaycan COP29 çərçivəsində milli səviyyədə müəyyən edilmiş töhfələrini (NDC-lər) və beynəlxalq iqlim sazişlərinə verdiyi dəstəyi gücləndirə bilər. Qlobal miqyasda ekoloji məsələlərə daha çox diqqət cəlb etmək üçün Azərbaycanın inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşməsi və texnologiya transferi kimi sahələrdə beynəlxalq səylərə qoşulması da gözlənilir.

Təşkilat Komitəsinin üzvü diqqətə çatdırdı ki, COP29-da iqlim dəyişikliyi ilə mübarizə və Paris İqlim Sazişi çərçivəsindəki irəliləyişlər üzrə müzakirələr üçün müvafiq mövzular müəyyən edilir. Bu, yeni maliyyə mexanizmləri, karbon bazarları və inkişaf etməkdə olan ölkələr üçün dəstək məsələlərini əhatə edir. Yeni iqlim maliyyəsi mexanizmləri və iqlim dəyişikliyinə uyğunlaşma üzrə təkliflər hazırlanır. Bu sahədə daha effektiv və ədalətli maliyyə modellərinin təklif edilməsi planlaşdırılır.

Gülşən Axundova  bildirdi ki, COP29 qlobal geosiyasi proseslərə və sülh quruculuğuna töhfə verəcək qərarların qəbul edilməsi üçün mühüm platformanı təmin edəcək. Bu, qlobal iqlim siyasətinin sülh və əməkdaşlıq istiqamətində təsirini artıracaq. COP29 ekologiya və iqtisadiyyat arasında daha güclü əlaqələrin qurulması və "yaşıl baxış" prinsiplərinin təşviqi ilə bağlı müzakirələri əhatə edəcək. Bu, iqtisadi inkişaf və ekoloji qorumanın uyğunlaşdırılması ilə bağlı yeni strategiyaların təqdim edilməsini əhatə edir. Bu təhlillər COP29-un məqsəd və gözləntiləri haqqında geniş bir baxış təqdim edir və tədbirin qlobal iqlim siyasətinə necə təsir edəcəyi barədə bir anlayış verir.